# İşğaldan azad rayonlarımızda dövlətçilik tariximizin bərpası...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

**Azərbaycan ərazində çox qədim dövlətlər olub və bu dövlətlərin izi hər bir ərazimizdə yaşayır. Qədim dövlətçiliyimizin beşiklərindən biri də Qarabağ, Zəngəzur ərazisidir. Qarabağ və ətraf ərazilər 30 il Ermənistanın işğalı altında qaldı. Bu dövr ərzində ermənilər torpaqlarımızı talan etdi, dövlətçilik ənənələrini özündə ifadə edən dəyərlərə qarşı vandalizm sərgilədilər.**

2020-ci il sentybarın 27-də Azərbaycan Ordusunun həyata kerçirdiyi əks-hücum əməliyyatları nəticəsində torpaqlarımız işğaldan azad edildi və bu ərazilərdə Azərbaycanın suverenliyi bərpa olundu. Qarabağ xanlığının yurdu olan ərazilərimizin işğaldan azad edilməsi nəticəsində orada dövlət quruluşumuz bərqərar oldu, bayrağımız dalğalandı. Bir sözlə işğaldan azad rayonlarımızda dövlətçilik tariximizin bərpası işləri sürətlənib. Tarixən Azərbaycanın Qarabağ xanlığının paytaxtı olan Şuşa şəhəri yenidən dövlətçiliyinizin sütunlarından birinə çevirilməkdədir. gizlin deyil ki, Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biridir, bununla yanaşı Şuşa həm də Azərbaycan dövlətçiliyinin rəmzlərindən biri, hərbi, siyasi, strateji əhəmiyyəti olan şəhəridir.

### Şuşanın dövlətçilik əhəmiyyəti...

Qeyd olunur ki, XVIII əsrin ikinci yarısından başlayaraq şəhərin əhalisi sürətlə çoxalmış və Şuşa Azərbaycanın mühüm, strateji əhəmiyyətli şəhərlərindən birinə çevrilmişdi. Hələ Pənahəli xanın dövründə şəhərdə böyük tikinti işləri aparılmış, sonra İbrahimxəlil xanın (1763-1806-cı illər) dövründə isə Qarabağ xanlığı daha da gücləndi. Xanlığın ərazisində Əskəran, Ağoğlan qalaları, Şuşa qalasının divarları və s. diqqətəlayiq, strateji əhəmiyyətli qalalar tikilmişdi. Şəhər qısa müddət ərzində xeyli böyümüş, təbii gözəlliyi, hündür binaları və möhtəşəm qala divarları ilə diqqəti cəlb etmişdi. Bu Şuşanın xanlığın paytaxtı və hərbi-siyasi, strateji baxımdan əhəmiyyətli bir şəhər olduğunu göstərir. Bu gün orada Azərbaycan dövlətinin bütün qanunları, qaydaları bərqərardır və üçrəngli bayrağımız Şuşa qalasında dalğalanır.

### Azad ərazilərimizdə dövlətçiliyimiz bərqərar oldu...

Bildiyimiz kimi, bu gün Şuşada, Zəngilanda, Laçında, Füzulidə, Ağdamda, Cəbrayılda, Qubadlıda, Hadrutda və başqa rayonlarımızda Azərbaycan dövlətçiliyinin bütün istiqamətləri oturuşub. Əlbəttə, torpaqlarımızın işğadan azad edilməsi nəticəsində biz bunlara nail ola bilmişik. Bu gün artıq o ərazilərə geridönüş prosesi başlanılıb, şəhərlər, rayonlar bərpa edilir, qəsəbələr salınır, evlər, məktəblər, inzibati binalar, ticarət və sahibkarlıq obyektləri tikilir, məskunlaşdırma aparılır.

Onu da vurğulayaq ki, azad edilmiş ərazilərdə iqtisadi rayon institutu yaradıb. Bu gün Şərqi Zəngəzur İqtisadi Rayonu, Qarabağ İqtisadi Rayonu kimi ərazi vahidləri mövcuddur. Belə ki, Prezident İlham Əliyevin 7 iyul 2021-ci il tarixli Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü təsdiqləndi. Fərmanda qeyd edilirdi ki, işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.




AVCİYA-nın vitse-prezidenti, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə şərhində "İşğaldan azad olunmuş ərazilərimizdə dövlətçiliyimizin bərpası bilavasitə aparılan islahatlarla, Prezidentin sərəncamları ilə həyata keçirilir. Məsələn, azad edilmiş rayonlarımızın iqtisadi rayonlara bölünməsi, o iqtisadi rayonlara Prezidentin səlahiyyətli nümayəndəsinin təyin olunması və rəhbərliyi ilə quruculuq işlərinin aparılması məhz dövlətçiliyin həmin ərazilərdə möhkəmləndirilməsidir. Bir məsələni də qeyd edək ki, vaxtilə didərgin düşən əhalinin geri qayıtması, onların məşğulluğunun təmin edilməsi və prosesin gələcəkdə inkişaf etdirilməsi də dövlətçiliyimizin orada güclənməsinə hesablanıb. Mənə belə gəlir ki, yaxın gələcəkdə, daha doğrusu gələn il bələdiyyə seçkiləri keçiriləcək. Bildiyiniz kimi, 1999-cu ildən indiyə qədər keçirilən bələdiyyə seçkilərində azad edilən rayonlar iştirak etməyib. Hesab edirəm ki, azad rayonlarda yerli idarəertmənin də strukturunu formalaşdırmaq vaxtıdır. Həmin rayonlarda da bələdiyyə seçkilərinin keçirilməsi və orada da bələdiyyənin formalaşması həyata keçiriləcək. Bu da dövlətçiliyin inkişafına xidmət edir. Artıq get-gedə rayonlarda məskunlaşırılma prosesinin genişlənir. Hesab edirəm ki, işğaldan azad edilən rayonların Azərbaycanın digər rayonlarında da yerləşdirilmi icra strukturları da artıq geri qayıtmalı, öz ərazində bərqərar olmalıdır.

Burada bir məsələ də var. Bu rayonlarda həm icra başçıları, həm də Prezidentin təyin etdiyi xüsusi nümayəndələr var. Mənə belə gəlir ki, gələcəkdə bu məsələ ilə bağlı da islahatlar olacaq, rayon icra hakimiyyətlərinin vəzifələri də Prezidentin xüsusi nümayəndələrinə səlahiyyət verilməklə həyata keçiriləcək. Mənə belə gəlir ki, belə olarsa daha çevik inkişafa və dövlətşiliyimizin daha da güclənməsinə nail ola bilərik"- deyə bildirdi.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**